*Peşə təhsili və insan kapitalı. Cild 5, №2, 2022, s.97-100*

# QARABAĞIN İŞĞALI NƏTİCƏSİNDƏ MƏHV EDİLMİŞ ŞUŞA KİTABXANALARI



**Təranə Rüstəmova,**
*Azərbaycan Milli Elmlər Akademiyasının*
*Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun doktorantı*
*e-mail: terane.mirzeyeva.rustemova@gmail.com*

**UOT:** 930.85

**Xülasə**. *Məqalədə erməni işğalı nəticəsində məhv edilmiş Qarabağ və Şuşa kitabxanaları haqqında məlumat verilmişdir. Həmçinin Qarabağın azad edilməsindən sonra Şuşa şəhərində aparılan yenidənqurma tədbirləri və prezidentin sərəncamları haqqında informasiya da öz əksini tapmışdır.*

***Açar sözlər:*** *Şuşa, Qarabağ, kitabxana, Şuşa MKS, milli irs.*
***Key words:*** *Shusha, Karabakh, library, Shusha CLS, national heritage.*
***Ключевые слова:*** *Шуша, Карабах, библиотека, ЦБС Шуша, национальное наследие.*

Siyasətinin ana xəttini terror təşkil edən Ermənistan dövlətinin Azərbaycan ərazisinin 20%-nin işğalı nəticəsində ölkəmizə dəyən ziyan və zərərlər maddi olduğu qədər də, mənəvi cəhətdən ciddi zərbədir. Çünki işğal edilmiş doğma torpaqlarımızda kitab, kitabxana və mədəniyyət irsimizə qarşı törədilmiş vəhşilikləri milli yaddaşımızı məhvetmə siyasəti kimi səciyyələndirmək olar.

Qısaca olaraq xronikaya nəzər salsaq, bunun aydın şahidi olmaq mümkündür. Qarabağın işğalının Azərbaycan iqtisadiyyatına təsirini aşağıdakı faktlardan görmək olar:

Qarabağın işğalı nəticəsində yaşayış yerləri (890), ev (150000), dövlət qurumları (7000), məktəblər (693), uşaq bağçaları (855), tibb müəssisələri (695), kitabxanalar (927), məscidlər (9), tarixi yerlər (9), tarixi abidələr (464), muzeylər (40.000), sənaye müəssisələri (6000), magistral yollar (800 km), körpülər (160), su xətti (2.300 km), qaz kəməri (2000 km), elektrik xətti (15.000 km), meşəlik torpaq (280.000 hektar), suvarma sistemlərinə (1200 km) ziyan vurulmuşdur. (Mənbə: http://melumat.xazar.com).

Bundan başqa, Qarabağın işğalının əmək elementinə təsirləri də göstərilən mənbədə əksini tapıb.

20 min insan öldürülüb, 50 min insan yaralanıb, 50 min insan əlil olub, 5100 nəfər əsir düşüb, 1.000.000 insan miqrasiyaya məcbur edilib (mənbə: http://www.human.gov.az).

İşğal olunmuş torpaqlarda 900-ə yaxın yaşayış sahəsi, 131.000 ev, 1025 təhsil müəssisəsi, 798 səhiyyə ocağı tərk edilib. Eyni zamanda 1,3 milyon hektar kənd təsərrüfatı sahəsi, 1200 km suvarma sistemi, 7000 kənd təsərrüfatı müəssisəsi, 280.000 hektar meşə sahəsi terkedilmə məcburiyyətində qalıb. Hesablamalara görə, 927 kitabxana, 10-dan çox arxeoloji abidə, 454 tarixi abidə və muzey erməni təcavüzünün qurbanı olub. Azərbaycan zəngin təbii sərvətlərindən, xüsusilə 39,6 min ton ehtiyata malik 3 qızıl mədəni, 4 civə və sürmə yatağından məhrum

edilmişdir. Ermənistanla müharibə nəticəsində iqtisadi potensialının təxminən 16%-ni itirən Azərbaycanın 25-60 milyard dollar itirdiyi hesablanır.

***Müharibə illərində Azərbaycanda makroiqtisadi göstəricilər:***

| Makroiqtisadi göstəricilər | 1991 | 1992 | 1993 | 1994 | 1995 | 1996 |
|---|---|---|---|---|---|---|
| ÜDM (% dəyişiklik) | 7,8 | 22,6 | 23,1 | 19,7 | 11,8 | 1,3 |
| İnflyasiya dərəcəsi | 206,6 | 1012,3 | 1229,1 | 1763,5 | 511,8 | 19,9 |
| Rəsmi işsizlik səviyyəsi | 0,11 | 0,17 | 0,52 | 0,65 | 0,78 | 0,86 |
| Büdcə kəsiri (ÜDM-in %-i) | – | – | 7,1 | 9,4 | 5,2 | 2,9 |
| Məzənnə (dollar) | – | 14,8 | 120 | 1433 | 4417 | 4295 |
| Xarici ticarət balansı | 239,7 | 544,1 | 95,8 | 125,1 | 30,4 | 329,3 |

***Mənbə:*** *Azərbaycan rəqəmlərdə 2005, ARDSK nəşrləri, Bakı, 2005.*

Ümumilikdə Qarabağın işğalı nəticəsində Azərbaycan iqtisadiyyatına 100 milyard dollara yaxın ziyan dəymişdir.

Azərbaycanın işğal olunmuş ərazilərində – Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kitabxanalar və orada saxlanılan unikal və nadir kitab kolleksiyaları tamamilə talan edilmiş və yandırılmışdır. Qarabağın mədəniyyət və təhsil mərkəzi Şuşa tarix-memarlıq qoruğunun ərazisində yerləşən Pənahəli xanın tarixi kitabxanası, rəssam, görkəmli alim Mir Mövsüm Nəvvabın şəxsi kitabxanası, Aşağı və Yuxarı Gövhər ağa, Köçərli, Mərdinli, Cümə məscidlərində, dahi bəstəkar Üzeyir Hacıbəyovun, professional vokal sənətinin banisi Bülbülün ev muzeylərində saxlanılan dəyərli kitablar erməni vandalları tərəfindən məhv edilmişdir. Onların çoxu Ermənistana aparılmışdır. İşğal zonalarında maddi və mədəniyyət yadigarlarımızın dağıdılması prosesi indi də davam edir [1].

Tarixən mədəniyyət beşiyi sayılan Şuşa şəhəri 1992-ci ilin may ayında işğal edildikdən sonra orada mövcud olmuş bütün mədəniyyət abidələrimiz, milli tarixi irsimizin böyük hissəsi qarət olunaraq məhv edilmiş, bəziləri saxtakarlığa məruz qalaraq gah erməniləşdirilmiş, gah da farslaşdırılmışdır. Məsələn, Yuxarı Gövhər ağa Məscidi fars memarlıq abidəsi kimi təqdim edilmişdir və s. Məlumat üçün onu da bildirək ki, işğal dövrünə qədər Şuşada ümumilikdə: 248 tarix və mədəniyyət abidələri, 5 muzey, rəsm qalereyası və 32 kitabxana mövcud olmuşdur.

Şuşada ilk şəhər kitabxanası 1897-ci ilin fevral ayında yaradılmışdır. Təməli M.M.Nəvvab tərəfindən qoyulan ilk kitabxana-qiraətxananın çoxlu sayda ziyalı üzvləri olmuşdur. Nəvvab özünün daş mətbəəsində Şuşa şairlərinin şeirlərini çap etdirmişdir. Kitabxananın yaradılmasında şairə Natəvanın oğlu Mehdiqulu xanın, həkim Kərim bəy Mehmandarovun böyük xidmətləri vardır. Sovet hakimiyyəti dövründə M.M.Nəvvabın yaratdığı kitabxananı oğlu Miriş ağa işlətmişdir. Daha sonralar Şuşa şəhərində 2 kitabxana da fəaliyyət göstərmişdir. Bunlar şəhər və uşaq kitabxanası olmuşdur [6].

Şuşada fəaliyyət göstərən bir Mərkəzi Kitabxana və 31 kitabxananın birləşdirilməsi nəticəsində 1977-ci ildə Şuşa rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) təşkil edilmişdir. Rayon MKS-nin tərkibində 32 kitabxana binası mövcud olmuşdur. 1991-ci ilin məlumatına görə, MKS-də işçilərin sayı 103 nəfər, kitabxana fondunun ümumi həcmi 200 min nüsxə, oxucuların ümumi sayı 10 min nəfər təşkil etmişdir. İşğal nəticəsində rayon ərazisindəki 32 kitabxana və bu kitabxanalarda saxlanılan qədim və unikal kitablar yandırılmış və məhv edilmişdir. Kitabxanaların dağıdılması nəticəsində dövlətə 1 milyon 106.000 manat həcmində ziyan dəymişdir [1].

1993-cü ilin fevral ayından Mədəniyyət Nazirinin əmri əsasında Şuşa rayon Mərkəzi Kitabxanası fəaliyyətini Bakı şəhəri, Nərimanov rayonu Təbriz küçəsi, 2A ünvanında davam etdirir.

Şuşa rayon MKS-in filiallarının Bakıda iki, Şəkidə bir ünvanda, şuşalı qaçqınların kompakt yaşadığı yerlərdə fəaliyyəti bərpa edildi.

*Malıbəyli kənd kitabxana filialı* 1910-cu ildə yaradılmışdır. Şuşanın işğalından sonra kitabxana Yeni Ramana – 450 qəsəbəsindəki Musiqi məktəbinin nəzdində öz fəaliyyətini davam etdirir. Kitabxana 2 otaqdan ibarətdir, sahəsi 80 kv/mdir. Telefon xətti olmadığı üçün kitabxananın e-mail ünvanı yoxdur. Kitabxananın 2 nəfər işçisi var. Kitabxana filialının fondu latın qrafikası ilə 8599 nüsxədir.

*Quşçular kənd kitabxana filialı* 1966-cı ildə yaradılmışdır. Məlum hadisələrdən sonra kitabxana öz fəaliyyətini Sabunçu rayonu Pirşağı

qəsəbəsindəki “Gilavar” sanatoriyasında davam etdirir. Kitabxana 1 otaqdan ibarətdir, sahəsi 24 kv/m-dir. Kitabxanada telefon xətti olmadığı üçün e-mail ünvanı yoxdur. Kitabxananın 2 nəfər işçisi var. Kitabxana filialının fondu latın qrafikası ilə 2635 nüsxədir.

*Xəlifəli kənd kitabxana filialı* 1928-ci ildə yaradılmışdır. Məlum hadisələrdən sonra kitabxana fəaliyyətini Şəki şəhəri, Yeni Çələbixan qəsəbəsində davam etdirir. Kitabxana 1 otaqdan ibarət olub, sahəsi 32 kv/m-dir. Telefon xətti olmadığı üçün kitabxananın e-mail ünvanı yoxdur. Kitabxananın 2 nəfər işçisi var. Xəlfəli kənd kitabxana filialının fondu latın qrafikası ilə 2242 nüsxədir [7].

Hazırda Şuşa rayon MKS-nin 37033.000 kitab fondu oxucuların istifadəsinə verilmişdir. Yeni struktur dəyişiklikləri əsasında MKS-nin şəbəkəsində oxuculara xidmət şöbəsi, metodika və biblioqrafiya şöbəsi, komplektləşdirmə və kitabişləmə şöbəsi, informasiya-resurs şöbəsi, uşaq şöbəsi, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi fəaliyyət göstərir [6].

Şuşa rayon Mərkəzi Kitabxanasının şöbələrinin fəaliyyəti aşağıdakı kimi təşkil edilmişdir:

• **İnformasiya resurs şöbəsi** oxuculara müasir kitabxana xidmətinin təşkilini həyata keçirir. Şöbə kitabxananın veb-saytının idarə olunmasını, lokal və internet şəbəkəsinin, həmçinin şəbəkənin antivirus proqramının fəaliyyətini təşkil edir.

• **Kitabişləmə və komplektləşdirmə şöbəsi** MKS-nin fonduna daxil olan yeni ədəbiyyatın kitabxana qaydası ilə işlənməsi, baş kataloq, əlifba və sistemli kataloqların təşkili və redaktə olunması ilə məşğul olur. Həmçinin MKS-nin struktur bölmələri arasında oxucu sorğusunu və profilini nəzərə alaraq paylanması prosesini həyata keçirir.

• **Metodika və biblioqrafiya şöbəsi** hər ay keçirilən seminar müşavirələrinin planını hazırlayır, MKS-nin əhatə etdiyi şöbə və filiallara metodik cəhətdən xidməti həyata keçirir, filiallarda fondun kitabxana qaydası ilə düzülüşünə nəzarət edir, filial kitabxanaların işini əlaqələndirir. Eyni zamanda köhnəlmiş ədəbiyyatın silinməsini həyata keçirir;

• **Oxuculara xidmət şöbəsi** – əhaliyə oxu zalı və abonement vasitəsilə xidmət göstərir, oxucuların sorğularını ödəməyə çalışır. Şöbənin əsas məqsədi oxucu kütləsini kitabxanaya cəlb etmək, fondda olan kitab və kitabçalar, dövri mətbuat, kataloq və kartoteka sistemi vasitəsilə oxucu sorğularının ödənilməsi işini həyata keçirtmək, onların müxtəlif mövzularda keçirilən tədbirlərdə fəal iştirakını təşkil etməkdir. Oxu zalında oxucuların pulsuz istifadə edə biləcəyi WİFİ internet zonası yaradılmışdır. Şöbənin fondunda 22.700 nüsxə kitab vardır. İl ərzində şöbənin fonduna 620 nüsxə yeni ədəbiyyat daxil olmuşdur. Kitabxananın fondu latın qrafikası ilə 23475 nüsxədir [6].

Qeyd etmək lazımdır ki, erməni terrorçuları tərəfindən zəbt olunmuş qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda bütövlükdə 9 Mərkəzləşdirilmiş Kitabxana Sistemi, 927 kitabxana və orada saxlanılan 4,6 milyon nüsxə kitab talan və məhv edilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə 2017-ci il fevral ayının 27-də Azərbaycan Milli Kitabxanasında Şuşa Şəhər Kitabxanasının 120 illik yubileyi qeyd edilmişdir. Tədbirdə iştirak edənlər Şuşa şəhərinin tarixinə, mədəniyyətinə və görkəmli şəxsiyyətlərinə dair foto və kitab sərgisi ilə tanış olublar [8].

Ali Baş Komandan İlham Əliyevin qətiyyətli, inamlı siyasəti və Müzəffər ordumuzun şücaəti 2020-ci il 27 sentyabr -10 noyabr tarixlərində 44 günlük müharibədən zəfər çalaraq qələbəmizə nail olduq. Doğma Qarabağımıza, əziz Şuşamıza qovuşduq!

Prezident İlham Əliyevin Sərəncamı ilə 2022-ci il “Şuşa ili” elan edilmişdir. 5 yanvar 2022-ci ildə imzalanmış Sərəncamda Şuşa şəhərinin əhəmiyyəti bir daha vurğulanmışdır: “... Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır.

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büs-

tünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün Ev Muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə "Vaqif Poeziya günləri"nin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır" [9].

**Nəticə.** Sonda bir faktı da qeyd edək ki, Qarabağda kitabxanaların yenidən bərpa edilməsi məqsədi ilə kütləvi kitabtoplama kompaniyasına başlanılmışdır. Respublikamızın müxtəlif bölgələrində fəaliyyət göstərən hər bir kitabxana rəhbərliyi öz fondundan, görkəmli şəxslər, könüllü vətəndaşlar isə şəxsi kitabxanalarından kitablar, jurnallar, qəzetlər, elektron informasiya resursları və s. təqdim etməklə bu aksiyada xüsusi fəallıq nümayiş etdirirlər.

Ümid edirik ki, qısa zaman kəsiyində həm Şuşa Şəhər Kitabxanası, həm də kəndlərdə, məktəblərdə, idarə və müəssisələrdə ənənəvi və elektron kitabxanalar yenidən qurularaq öz oxucusuna layiqincə xidmət göstərəcəkdir.

## ƏDƏBİYYAT


1. Abbasov S.Ə. Dağıdılmış sərvətlər, məhv edilmiş kitabxanalar. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. Bakı, 2012.
2. Rüstəmova T.S. Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarında məhv edilmiş tarixi-mədəni irsimiz. "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpozyumun materialları (10-13 iyul). Bakı, 2019.
3. Azərbaycan rəqəmlərdə 2005. ARDSK nəşrləri, Bakı, 2005.
4.http://www.human.gov.az
5.http://melumat.com
6.http://shusha.cls.az/more/text/44799
7.https://az.wikipedia.org/wiki/%C5%9Eu%C5%9Fa_%C5%9E%C9%99h%C9%99r_M%C9%99rk%C9%99zl%C9%99%C5%9Fdirilmi%C5%9F_Kitabxana_Sistemi#cite_note-bil%C9%99k-1
8.https://azertag.az/xeber/Susa_Seher_Kitabxanasinin_120_illiyi_qeyd_edilib-1039032
9.https://president.az/az/articles/view/55197


**T.Rustamova**

### Shusha libraries destroyed as a result of the occupation of Karabakh


**Abstract**

The article provides information about the Karabakh and Shusha libraries destroyed as a result of the Armenian occupation. Information on the reconstruction measures carried out in Shusha after the liberation of Karabakh and presidential decrees was also provided.


**Т.Рустамова**

### Библиотеки Шуши, разрушенные в результате оккупации Карабаха


**Аннотация**

В статье приводится информация о библиотеках Карабаха и Шуши, разрушенных в результате армянской оккупации. Также была предоставлена информация о восстановительных мероприятиях и президентских указах в Шуше после освобождения Карабаха.